No: 02 2026
https://doi.org/10.64400/ea26-02-17
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

# QAZAX-TOVUZ İQTİSADİ RAYONUNDA MƏŞĞULLUĞUN ARTIRILMASI VƏ İŞSİZLİYİN ARADAN QALDIRILMASININ İQTİSADİ-COĞRAFİ İSTİQAMƏTLƏRİ

**Nərgiz MƏCİDOVA**
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
**Yazışılan müəllif:* geograph@live.ru

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi: 06.06.2026*
*Nəşr edilmə tarixi: 25.06.2026*

**AÇAR SÖZLƏR:**
iqtisadi rayon, regional inkişaf, işsizlik, nəqliyyat dəhlizləri, aqrosənaye

**XÜLASƏ**
Məqalədə Azərbaycan Respublikasında regionlararası sosial-iqtisadi disproporsiyalar fonunda Qazax-Tovuz iqtisadi rayonunda işsizliyin azaldılmasının iqtisadi-coğrafi istiqamətləri araşdırılır. Tədqiqatın məqsədi regionun iqtisadi-coğrafi mövqeyi, tranzit funksiyası, aqrar potensialı və əmək ehtiyatları ilə məşğulluq səviyyəsi arasındakı qarşılıqlı əlaqəni elmi əsaslarla təhlil etməkdir. Araşdırmada rəsmi statistik məlumatların təhlili, müqayisəli və sistemli yanaşma metodlarından istifadə edilmişdir. Bununla yanaşı, regional inkişaf proqramları, dövlət strategiyaları və iqtisadi rayonlaşma ilə bağlı normativ sənədlər də tədqiqatın nəzəri-metodoloji bazasını təşkil edir. Təhlilin nəticələri göstərir ki, beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı, aqrosənaye klasterlərinin formalaşdırılması və logistika infrastrukturunun genişləndirilməsi Qazax-Tovuz iqtisadi rayonunda dayanıqlı məşğulluğun təmin edilməsində əsas iqtisadi-coğrafi amillər kimi çıxış edir. Eyni zamanda, regionun sərhəd mövqeyi, tranzit imkanları və kənd təsərrüfatı resursları iqtisadi fəaliyyətin şaxələndirilməsi üçün əlverişli şərait yaradır. Məqalədə həmçinin regionda mövcud olan struktur disbalanslar, əmək bazarının xüsusiyyətləri və məşğulluq imkanlarının artırılması istiqamətində həyata keçirilə biləcək tədbirlər təhlil edilir.Aparılan araşdırmalar göstərir ki, regional potensialın səmərəli istifadəsi, kiçik və orta sahibkarlığın inkişafı, aqrar emal sənayesinin genişləndirilməsi və nəqliyyat-logistika xidmətlərinin gücləndirilməsi Qazax-Tovuz iqtisadi rayonunda işsizliyin azaldılmasına və dayanıqlı regional inkişafın təmin edilməsinə mühüm töhfə verə bilər.

## GİRİŞ

Regional əmək bazarlarının formalaşması və inkişafı müasir iqtisadi coğrafiyanın əsas tədqiqat istiqamətlərindən biridir. Qloballaşma, istehsalın məkan üzrə yenidən təşkili və texnoloji dəyişikliklər fonunda işsizlik problemi yalnız makroiqtisadi deyil, eyni zamanda ərazi-struktur xarakter daşıyır (OECD, 2020). Bu baxımdan, Azərbaycan Respublikasında işsizliyin regionlar üzrə qeyri-bərabər yayılması iqtisadi-coğrafi təhlilin aktuallığını artırır.

Azərbaycan Respublikasında həyata keçirilən müasir regional inkişaf siyasətinin əsas məqsədi ərazilər üzrə balanslı sosial-iqtisadi artımın təmin olunmasıdır (World Bank, 2021). Bu yanaşma milli təhlükəsizliyin möhkəmləndirilməsi, əhalinin rifah səviyyəsinin yüksəldilməsi və dayanıqlı iqtisadi inkişafın təmin edilməsi baxımından strateji əhəmiyyət daşıyır (OECD, 2020). Mövcud mərhələdə ölkə iqtisadiyyatının əsas problemlərindən biri iqtisadi fəaliyyətin və maliyyə resurslarının yüksək dərəcədə paytaxt regionunda cəmləşməsidir (Krugman, 1991). Bu disproporsiya regionların əmək bazarında struktur problemlər yaradır və işsizliyin azalması istiqamətində kompleks yanaşma tələb edir.

Qazax–Tovuz iqtisadi rayonu (Qazax, Ağstafa, Tovuz, Şəmkir və Gədəbəy rayonları) qeyri-neft sektorunun üstünlük təşkil etdiyi, aqrar-sənaye istiqamətli ərazi olmaqla yanaşı, mühüm tranzit və sərhədyanı mövqeyə malikdir. Qazax-Tovuz iqtisadi rayonu əlverişli iqtisadi-coğrafi mövqeyi, beynəlxalq nəqliyyat dəhlizləri üzərində yerləşməsi, zəngin aqrar potensialı və kifayət qədər əmək ehtiyatlarına malik olması ilə seçilir (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2024). Lakin mövcud potensiala baxmayaraq, rayonda məşğulluğun sahə və məkan strukturu səmərəli hesab edilə bilməz. İşsizliyin açıq və gizli formaları, xüsusilə kənd ərazilərində və gənclər arasında daha qabarıq müşahidə olunur.

## MATERİAL VƏ METODLAR

Tədqiqat işində Qazax-Tovuz iqtisadi rayonunun sosial-iqtisadi inkişaf dinamikasını təhlil etmək məqsədilə kompleks iqtisadi-coğrafi yanaşma tətbiq edilmişdir (İmrani & Zeynalova, 2014). Tədqiqatın material bazasını Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin son 10 ili əhatə edən rəsmi hesabatları, "Regionların sosial-iqtisadi inkişafı" dövlət proqramlarının icra göstəriciləri təşkil edir (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2025). Metodoloji baxımdan məqalədə müqayisəli coğrafi təhlil, statistik təhlil, sistemli yanaşma və struktur-funksional üsullarından istifadə olunmuşdur (Krugman, 1991; Storper, 2013). Regionun beş inzibati rayonu üzrə əmək ehtiyatlarının struktur analizi aparılarkən kəmiyyət göstəriciləri ilə yanaşı, hər bir rayonun təbii-resurs potensialı və nəqliyyat-coğrafi mövqeyinin üstünlükləri keyfiyyət baxımından qiymətləndirilmişdir. Bu metodların tətbiqi, işsizliyin strukturunu müəyyən etməyə və hər bir rayon üçün spesifik iqtisadi ixtisaslaşma istiqamətlərini proqnozlaşdırmağa imkan vermişdir.

## NƏTİCƏLƏRİN MÜZAKİRƏSİ

Azərbaycan üzrə iqtisadi potensialın böyük hissəsinin Bakı və Abşeron-Xızı iqtisadi rayonunda cəmləşməsi regionlarla paytaxt arasında inkişaf fərqini dərinləşdirir (OECD, 2020). Regionlarda formalaşan iqtisadi fəaliyyətin məhdudluğu məşğulluq imkanlarının daralmasına və daxili miqrasiyanın güclənməsinə səbəb olur (World Bank, 2021). Qazax-Tovuz iqtisadi rayonu bu ümumi mənzərədə xüsusi yer tutur və ölkənin qərb istiqamətində iqtisadi əlaqələrinin formalaşmasında əsas tranzit zonalardan biri hesab olunur.

Ağstafa, Gədəbəy, Qazax, Şəmkir və Tovuz rayonlarını əhatə edən bu iqtisadi rayon Gürcüstan və Ermənistanla həmsərhəd olmaqla yanaşı, Azərbaycanın Avropa və Qara dəniz hövzəsi ilə iqtisadi inteqrasiyasında mühüm funksiyalar yerinə yetirir. Bununla belə, keçid dövründən miras qalmış struktur problemlər və iqtisadiyyatın sahəvi qeyri-tarazlığı regionda məşğulluğun əsasən kənd təsərrüfatı sektorunda cəmləşməsinə gətirib çıxarmışdır.

2025-ci ilin əvvəlinə olan rəsmi statistik göstəricilərə əsasən, Qazax-Tovuz iqtisadi rayonunun əhalisinin sayı 680,6 min nəfər olmuşdur (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2025). Əhalinin artım meylləri əmək bazarında təklifin genişlənməsinə səbəb olmaqla yanaşı, yeni və dayanıqlı iş yerlərinin yaradılmasını zəruri edir. Hazırda region üzrə məşğulluğun əsas hissəsi aqrar sektorda formalaşır ki, bu da əmək məhsuldarlığının nisbətən aşağı səviyyədə qalmasına və mövsümi işsizliyin artmasına gətirib çıxarır.

Regionda işsizliyin əsas səbəbləri aşağıdakı amillərlə xarakterizə olunur:

1. Aqrar sektorun üstün mövqeyi – Regionda məşğul əhalinin əhəmiyyətli hissəsinin kənd təsərrüfatında cəmlənməsi məşğulluğun mövsümi xarakter almasına səbəb olur. Bu isə xüsusilə payız və qış aylarında işsizliyin artması ilə nəticələnir və əmək bazarında sabitliyin pozulmasına gətirib çıxarır.
2. Sənaye infrastrukturunun qeyri-bərabər inkişafı – Emal sənayesi müəssisələrinin kifayət qədər formalaşmaması və istehsal sahələrinin region üzrə balanssız yerləşməsi xammal ehtiyatlarının əsasən ilkin formada regiondan kənara daşınmasına şərait yaradır. Nəticədə əlavə dəyərin yerli iqtisadiyyatda yaradılması məhdudlaşır və yeni iş yerlərinin açılması zəifləyir.
3. Urbanizasiya və miqrasiya proseslərinin təsiri – Kənd yaşayış məntəqələrində sosial, nəqliyyat və texniki infrastrukturun zəif inkişafı əhalinin, xüsusilə gənclərin iri şəhərlərə və xarici ölkələrə miqrasiyasını sürətləndirir. Bu proses regionun əmək potensialının azalmasına və işçi qüvvəsi balansının pozulmasına səbəb olur.

**Cədvəl 1. Qazax-Tovuz iqtisadi rayonunda məşğulluğa təsir edən əsas iqtisadi-coğrafi amillərin müqayisəli analizi**

| Amil qrupu | Əsas göstərici | Məşğulluğa təsir mexanizmi | Analitik qiymətləndirmə |
|---|---|---|---|
| **Demoqrafik potensial** | Əmək qabiliyyətli əhalinin payı (63–65%) | Əmək təklifi yüksəkdir, yeni iş yerlərinə tələbat artır | Təklif tələbi üstələdiyi üçün struktur məşğulluq problemi mövcuddur |
| **Aqrar ixtisaslaşma** | Kənd təsərrüfatında məşğulluq (≈40%) | Mövsümi məşğulluq üstünlük təşkil edir | Emal və klasterləşmə olmadıqda dayanıqlılıq zəifdir |
| **Nəqliyyat mövqeyi** | Şərq–Qərb dəhlizinə çıxış | Logistika və xidmət sektorunda yeni iş yerləri yaradır | Multiplikativ təsir potensialı yüksəkdir |
| **İnfrastruktur** | Avtomobil yollarının keyfiyyəti | Əmək mobilliyini və bazara çıxışı asanlaşdırır | Dolayı məşğulluq təsiri güclüdür |
| **Sahibkarlıq mühiti** | Fərdi sahibkarlığın üstünlüyü | Özünüməşğulluq geniş yayılıb | Kiçik biznes formallaşmaya ehtiyac duyur |

Paytaxt regionu ilə müqayisədə Qazax-Tovuz iqtisadi rayonunda sənaye və xidmət sahələrinin inkişaf səviyyəsinin məhdudluğu ölkə daxilində formalaşmış məkan-iqtisadi asimmetriyanın mühüm indikatorlarından biri kimi çıxış edir (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2024). Krugmanun (1991) iqtisadi coğrafiya yanaşmasına əsasən, iqtisadi fəaliyyətin məkanda konsentrasiyası aqqlomerasiya effektləri ilə şərtlənir və bu proses kapitalın, əmək resurslarının və innovasiya potensialının əsasən iri şəhər mərkəzlərində cəmləşməsi ilə nəticələnir. Bu kontekstdə xarici investisiya axınlarının əsasən Bakı və onun ətraf ərazilərində toplanması Qazax-Tovuz iqtisadi rayonunun endogen inkişaf imkanlarını məhdudlaşdıraraq onun fiskal və institusional baxımdan dövlət investisiyalarından asılılığını gücləndirir. Porter (1998) tərəfindən irəli sürülən rəqabət üstünlükləri və klasterləşmə konsepsiyası, həmçinin OECD-nin (2020) regional inkişaf yanaşmaları göstərir ki, belə şəraitdə iqtisadiyyatın struktur şaxələndirilməsi və qeyri-aqrar sahələrdə məşğulluğun genişləndirilməsi davamlı regional inkişafın təmin edilməsində strateji prioritet kimi çıxış etməlidir.

Azərbaycan Respublikası Prezidentinin 7 iyul 2021-ci il tarixli sərəncamı ilə iqtisadi rayonların yeni bölgüsünün həyata keçirilməsi regional idarəetmənin optimallaşdırılması və resursların daha rasional bölgüsünün təmin edilməsi məqsədi daşıyır (Azərbaycan Respublikası Prezidenti, 2021). Bu çərçivədə Qazax-Tovuz iqtisadi rayonu geoiqtisadi baxımdan Şərq–Qərb istiqamətində formalaşan beynəlxalq nəqliyyat dəhlizlərinin strateji komponenti kimi çıxış edir. Dünya Bankının (World Bank, 2021) yanaşmasına əsasən, beynəlxalq tranzit dəhlizləri üzərində yerləşən regionlar logistika üstünlükləri və tranzit potensialı hesabına əlavə iqtisadi renta əldə etmək imkanına malik olur. TRACECA və CAREC təşəbbüsləri çərçivəsində regiondan keçən avtomobil və dəmir yolu infrastrukturunun inkişafı yük və sərnişin daşımalarının intensivliyini artırmaqla yanaşı, əmək bazarının funksional strukturunda diversifikasiyaya səbəb olur (Storper, 2013; OECD, 2020).

"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda (2019–2023) qeyd olunduğu kimi, nəqliyyat infrastrukturunun modernləşdirilməsi regional iqtisadi fəallığın stimullaşdırılmasının əsas alətlərindən biri hesab olunur (Azərbaycan Respublikası, 2019). Bu proses qısamüddətli dövrdə tikinti sektoru vasitəsilə birbaşa məşğulluğun artımını təmin etsə də, uzunmüddətli perspektivdə multiplikativ təsirlər yaradaraq iqtisadi sistemin digər sahələrinə də

sirayət edir. Nağıyevin (2009) tədqiqatlarına əsasən, nəqliyyat əlçatanlığının yüksəlməsi əhalinin ərazi mobilliyini artırmaqla əmək bazarına inteqrasiyanı sürətləndirir və regiondaxili sosial-iqtisadi əlaqələrin intensivləşməsinə səbəb olur. Bu isə kənd yaşayış məntəqələrinin rayon mərkəzləri ilə qarşılıqlı əlaqəsinin güclənməsi və əmək resurslarının daha səmərəli bölgüsü ilə nəticələnir (OECD, 2020).

Avtomobil yollarının keyfiyyətinin yüksəldilməsi nəqliyyat xərclərinin azalmasına və vaxt itkilərinin minimuma endirilməsinə səbəb olur. Bu proses regionda yolkənarı xidmətlərin, ticarət obyektlərinin və kiçik sahibkarlıq subyektlərinin inkişafını stimullaşdırır (İmrani & Zeynalova, 2014). Nəticədə qeyri-formal məşğulluğun azalması və yerli büdcə gəlirlərinin artması üçün əlverişli şərait yaranır.

Logistika imkanlarının genişlənməsi kənd təsərrüfatı məhsullarının bazarlara daha sürətli və itkisiz çıxarılmasını təmin edir. Bu isə aqrar istehsalın həcminin artmasına, emal sənayesinin inkişafına və kənd yerlərində əlavə iş yerlərinin yaradılmasına zəmin yaradır (Azərbaycan Respublikası, 2019; Porter, 1998).

Qazax-Tovuz iqtisadi rayonunda kənd təsərrüfatı ənənəvi olaraq iqtisadiyyatın aparıcı sahəsi olaraq qalır. Region üzümçülük, kartofçuluq, şəkər çuğunduru və tərəvəzçilik üzrə ixtisaslaşmışdır. Aqrar sahənin modernləşdirilməsi, innovativ texnologiyaların tətbiqi və emal müəssisələrinin yaradılması əmək məhsuldarlığının yüksəldilməsinə və kənd yerlərində dayanıqlı məşğulluğun formalaşmasına imkan verir. Aqrosənaye klasterlərinin təşkili istehsal, emal və satış mərhələlərinin vahid zəncir şəklində birləşdirilməsinə şərait yaradır (Porter, 1998). Bu yanaşma həm kənd təsərrüfatında mövsümi işsizliyi azaldır, həm də gənc əhalinin regionda qalmasını stimullaşdırır.
İşsizliyin azaldılması yalnız iqtisadi deyil, eyni zamanda ekoloji və sosial amillərlə də sıx bağlıdır. Tranzit nəqliyyatın yaşayış məntəqələrindən kənara yönəldilməsi ətraf mühitə mənfi təsirləri azaldır, əhalinin sağlamlıq göstəricilərinin yaxşılaşmasına səbəb olur. Ekoloji idarəetmə mexanizmlərinin tətbiqi regionda yeni peşə sahələrinin – ekoloq, təhlükəsizlik üzrə mütəxəssis və monitorinq xidmətlərinin formalaşmasına imkan yaradır.

Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf strategiyalarında regionların milli iqtisadiyyatda payının artırılması əsas prioritetlərdən biri kimi müəyyən edilmişdir. Qazax-Tovuz iqtisadi rayonu üçün bu strategiya çərçivəsində rəqəmsal texnologiyaların tətbiqi, sahibkarlığın stimullaşdırılması, peşə təhsilinin inkişafı və nəqliyyat-logistika potensialından səmərəli istifadə xüsusi əhəmiyyət kəsb edir (World Bank, 2021).

Yeni nəqliyyat dəhlizlərinin formalaşması regionun beynəlxalq iqtisadi əlaqələrini genişləndirir və əmək bazarında keyfiyyətcə yeni tələblər yaradır. Bu isə yerli əhalinin müasir ixtisaslar üzrə hazırlanmasını zəruri edir.

Ümumilikdə, Qazax-Tovuz iqtisadi rayonunun sosial-iqtisadi inkişafının təmin edilməsi yalnız dövlət investisiyalarının artırılması ilə məhdudlaşmamalı, həm də beynəlxalq nəqliyyat marşrutları və regional bazar əlaqələri vasitəsilə formalaşan iqtisadi imkanların yerli əmək bazarına effektiv inteqrasiyası ilə müşayiət olunmalıdır. Bu yanaşma regionda dayanıqlı məşğulluğun təmin edilməsinə və regional inkişaf balansının gücləndirilməsinə mühüm töhfə verə bilər.






**Qrafik 1.Qazax-Tovuz iqtisadi rayonunun inzibati rayonlar üzrə iqtisadi-coğrafi təhlili**

Bu qrafik hər bir rayonun spesifik resurs bazasına əsaslanaraq işsizliyin aradan qaldırılması üçün strateji yol xəritəsi rolunu oynaya bilər.

## NƏTİCƏLƏR

Aparılan təhlil və statistik göstəricilər təsdiq edir ki, Qazax-Tovuz iqtisadi rayonunda işsizliyin azaldılması üçün iqtisadi-coğrafi amillərə əsaslanan kompleks yanaşma zəruridir (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2025). Regionun əlverişli tranzit mövqeyi, aqrar potensialı və əmək ehtiyatları düzgün idarəetmə mexanizmləri ilə birləşdirildikdə dayanıqlı məşğulluq üçün real baza formalaşdırır. Qazax-Tovuz iqtisadi rayonunda işsizlik probleminin aradan qaldırılması yalnız kəmiyyət artımı ilə deyil, həm də regionun iqtisadi-coğrafi potensialına uyğun keyfiyyət dəyişiklikləri ilə mümkündür. Aparılan tədqiqat göstərir ki, iqtisadi rayonun beş inzibati rayonunun (Ağstafa, Gədəbəy, Qazax, Şəmkir və Tovuz) hər biri özünəməxsus resurs bazasına malikdir (İmrani & Zeynalova, 2014). Məşğulluq strategiyasında Qazaxın sənaye, Ağstafanın logistika, Şəmkir və Tovuzun aqro-sənaye, Gədəbəyin isə dağ-mədən və turizm profilinin ön plana çıxarılması "sahəvi ixtisaslaşma" modelini gücləndirir. Nəticə etibarilə, regionda xammal istehsalından tam dövriyyəli emal sənayesinə keçid, kiçik və orta sahibkarlığın (KOB) stimullaşdırılması və "yolboyu iqtisadiyyat" imkanlarından istifadə olunması təkcə işsizliyi minimuma endirməyəcək, həm də regionun ölkənin qeyri-neft ÜDM-dəki payını əhəmiyyətli dərəcədə artıracaqdır.

Bu baxımdan region üzrə dayanıqlı məşğulluğun artırılması və sosial-iqtisadi inkişafın sürətləndirilməsi üçün aşağıdakı strateji istiqamətlər əsas rol oynayır.

1. Aqrosənaye klasterlərinin inkişafı. Regionda aqrosənaye klasterlərinin formalaşdırılması istehsal, emal və satış mərhələləri arasında əlaqələrin gücləndirilməsinə, yerli xammalın dəyər zəncirinə cəlb olunmasına, əlavə dəyərin region daxilində yaradılmasına və yeni iş yerlərinin açılmasına şərait yaradır.

2. Logistika və nəqliyyat potensialının səmərəli istifadəsi. Qazax-Tovuz iqtisadi rayonunun beynəlxalq nəqliyyat dəhlizləri üzərində yerləşməsi logistika və paylama mərkəzlərinin inkişafı üçün əlverişli imkanlar yaradır. Bu istiqamət tranzit imkanlarının genişlənməsinə, məşğulluğun artmasına və regionun investisiya cəlbediciliyinin yüksəlməsinə xidmət edir.
3. İnsan kapitalının gücləndirilməsi və sahibkarlığın dəstəklənməsi. Peşə təhsili və ixtisasartırma proqramlarının əmək bazarının tələblərinə uyğunlaşdırılması kadr potensialının inkişafını təmin edir. Eyni zamanda, kiçik sahibkarlığın və yolkənarı xidmət infrastrukturunun dəstəklənməsi özünüməşğulluğun artmasına və əhalinin gəlir imkanlarının genişlənməsinə şərait yaradır.

## ƏDƏBİYYATLAR


Azərbaycan Respublikası Prezidenti. (2021, 7 iyul). Azərbaycan regionlarının yeni iqtisadi rayonlara bölünməsi haqqında sərəncam.

Azərbaycan Respublikası. (2019). Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2019–2023).

Azərbaycan Respublikası. (2019). Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2014–2018-ci illər) icrasının yekunları.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2024). Azərbaycanın regionları.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2025). 2025-ci ilin yanvar–mart ayları üzrə ölkənin sosial-iqtisadi inkişafının makroiqtisadi göstəriciləri və sosial sektor hesabatı.

İmrani, Z. T., & Zeynalova, K. Z. (2014). Azərbaycanda təsərrüfatın ərazi təşkilinin iqtisadi-coğrafi xüsusiyyətləri. Nafta-Press, 232 s.

Krugman, P. (1991). Geography and trade. MIT Press. 142 s.

Nağıyev, S. Q. (2009). Региональные особенности территориальной подвижности населения Азербайджана. Статьи Азербайджанского географического общества, 14, 230–234 s.

OECD. (2020). Regional development policy and multilevel governance. OECD Publishing.

Porter, M. E. (1998). Clusters and the new economics of competition. Harvard Business Review, 76(6), 77–90.

Storper, M. (2013). Keys to the city: How economics, institutions, social interaction and politics shape development. Princeton University Press. 355 s.

World Bank. (2021). World development report 2021: Data for better lives. World Bank.


## SUMMARY

## ECONOMIC AND GEOGRAPHICAL DIRECTIONS FOR INCREASING EMPLOYMENT AND REDUCING UNEMPLOYMENT IN THE GAZAKH–TOVUZ ECONOMIC REGION


**Nargiz Majidova**
**Baku State University, Baku, Azerbaijan**



The article examines the economic-geographical directions for reducing unemployment in the Gazakh–Tovuz economic region against the background of interregional socio-economic disparities in the Republic of Azerbaijan. The purpose of the research is to scientifically analyze the relationship between the region’s economic-geographical position, transit function, agrarian potential, labor resources, and the level of employment. The study is based on the analysis of official statistical data and employs comparative and systematic research methods. In addition, regional development programs, state strategies, and regulatory documents related to economic zoning constitute the theoretical and methodological framework of the research. The results of the analysis indicate that the development of international transport corridors, the formation of agro-industrial clusters, and the expansion of logistics infrastructure act as key economic-geographical factors in ensuring sustainable

employment in the Gazakh–Tovuz economic region. At the same time, the region's border location, transit opportunities, and agricultural resources create favorable conditions for the diversification of economic activities. The article also analyzes existing structural imbalances in the region, the characteristics of the labor market, and possible measures aimed at increasing employment opportunities. The research concludes that the effective use of regional potential, the development of small and medium-sized enterprises, the expansion of agro-processing industries, and the strengthening of transport and logistics services can significantly contribute to reducing unemployment and ensuring sustainable regional development in the Gazakh–Tovuz economic region.

***Keywords***: *economic region, regional development, unemployment, transport corridors, agro-industry*

## АННОТАЦИЯ

## ЭКОНОМИКО-ГЕОГРАФИЧЕСКИЕ НАПРАВЛЕНИЯ ПОВЫШЕНИЯ ЗАНЯТОСТИ И ЛИКВИДАЦИИ БЕЗРАБОТИЦЫ В ГАЗАХ-ТОВУЗСКОМ ЭКОНОМИЧЕСКОМ РАЙОНЕ

**Наргиз Меджидова**
**Бакинский государственный университет, Баку, Азербайджан**

В статье исследуются экономико-географические направления снижения безработицы в Газах-Товузском экономическом районе на фоне межрегиональных социально-экономических диспропорций в Азербайджанской Республике. Цель исследования заключается в научном анализе взаимосвязи между экономико-географическим положением региона, его транзитной функцией, аграрным потенциалом, трудовыми ресурсами и уровнем занятости населения. Исследование основано на анализе официальных статистических данных с применением сравнительного и системного методов. Кроме того, региональные программы развития, государственные стратегии и нормативные документы, связанные с экономическим районированием, составляют теоретико-методологическую основу исследования. Результаты анализа показывают, что развитие международных транспортных коридоров, формирование агропромышленных кластеров и расширение логистической инфраструктуры выступают ключевыми экономико-географическими факторами обеспечения устойчивой занятости в Газах-Товузском экономическом районе. Одновременно пограничное положение региона, его транзитные возможности и сельскохозяйственные ресурсы создают благоприятные условия для диверсификации экономической деятельности. В статье также анализируются существующие структурные дисбалансы региона, особенности рынка труда и возможные меры по расширению возможностей занятости. Проведенное исследование показывает, что эффективное использование регионального потенциала, развитие малого и среднего предпринимательства, расширение агроперерабатывающей промышленности, а также укрепление транспортно-логистических услуг могут существенно способствовать снижению безработицы и обеспечению устойчивого регионального развития в Газах-Товузском экономическом районе.

***Ключевые слова:*** *экономический район, региональное развитие, безработица, транспортные коридоры, агропромышленный комплекс*